

Flora Ələkbər qızı Kərimova 1941-ci il iyul ayının 23-də anadan olmuşdur. Səhnəyə ilk gəlişi 1956-1957-ci illərdə keçirilən Azərbaycan gənclərinin festivalında iştirakı ilə başlamışdır. 14 yaşından Şmidt zavodunun bədii özfəaliyyət kollektivində, Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki ADTU) "Çinar" ansamblında, 1960-cı ildə Azərbaycan Dövlət Filarmoniyasında çıxış etmişdir.

Flora Kərimova-70

# Səsin sehri

Flora xanım 1964-cü ildə Asəf Zeynallı adına Bakı Musiqi Texnikumunu bitirmişdir. 1983-cü ildən Azərbaycan Teleradio Verilişləri Şirkətinin solistidir. Repertuarında Azərbaycan bəstəkarlarının (Tofiq Quliyev, Emin Sabitoğlu, Elza İbrahimova, Oqtay Rəcəbov, Ramiz Mirişli və b.) mahnıları başlıca yer tutan müğənni özünəməxsus ifa tərzi ilə seçilir.

1966-cı ildə Azərbaycan Dövlət Opera və Balet Teatrında Leyli ("Leyli və Məcnun", Ü.Hacıbəyli) partiyasında 6 tamaşada çıxış etmiş, 1969-cu ildə "Qanun naminə" bədii filmində Züleyxa roluna çəkilmişdir. 1971-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunda (indiki ADTU) və 1977-ci ildə Azərbaycan Dövlət Konservatoriyasında təhsilini müvəffəqiyyətlə başa vurmuşdur. "Böyük dayaq" (1962), "O qızı tapın" (1970), "Gün keçdi" (1971), "Həyat bizi sınayır" (1972), "Qız, oğlan və şir" (1974), "Payız melodiyaları"(1974), "Şahzadə-qara qızıl" (1974), "Alma almaya bənzər"(1975), "Toplan və kölgəsi" (1977), "Sonrakı peşmançılıq" (1978), "Qaynana" (1978)", "Yollar görüşəndə..." (1979), "Onun bəlalı sevgisi" (1980), "Nəğməkar torpaq" (1981), "Evləri köndələn yar" (1982), "Əzablı yollar"(1982), "Bağışla" (1983), "Humayın yuxusu" (1985), "Səndən xəbərsiz" (1985), "Xüsusi vəziyyət" (1986), "Ağ atlı oğlan" (1995) adlı film və tamaşalarda mahnıların ifaçısı kimi çıxış etmişdir. Flora xanımın ifasında səslənən "Yoxluğunu bilə-bilə", "Yalan imiş", "İlahi", "Ruhumuz qovuşacaq", "Qarabağ", "Əzizim", "Bakı, sabahın xeyir", "Bir axşam taksidən...", "Bir daha", "Dünya köhnə dünyadır", "Əlvida", "Unut sən məni", "Saçlarına gül düzüm", "Unutma", "Sən uzaq yaşıl ada" mahnıları bu gün də sevilə-sevilə dinlənilir.

**1977-ci ildə insan hüquqlarının ən yaxşı müdafiəçisi kimi Sülh və Demokratiya İnstitutu İnsan hüquqları Müdafiəsi Departamentinin baş mükafatını almışdır. Azərbaycan musiqi ifaçılığı sənətinin inkişafındakı xidmətlərinə görə Flora Ələkbər qızı Kərimova 17 noyabr 1992-ci ildə Azərbaycan Respublikasının Xalq artisti adına layiq görülmüşdür.**

**● Adilə ABDULLAYEVA**